www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Gənc yazarın e-kitabı”

Vasif Əlihüseyn

Ayrılığın rəngi

Şeirlər

2012

YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU. E-NƏŞR N 04 (66 2012)

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu ilə http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 04

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 04 (66 - 2012)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında Azərbaycan Gənclər Fondu

(http://youthfoundation.az/)

Vasif Əlihüseyn

Ayrılığın rəngi

Şeirlər

İstedadli gənc şairin lirik şeirlərdən ibarət ilk elektron kitabı...

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 04 (66 - 2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

Vasif Əlihüseyn
Ayrılığın rəngi
Bakı-2011

Ömür

Bax belə,

sənə zarafat gəlir,

hər şey.

Əzrayılın

əsəblərinə toxunur,

güldüyümüz dəqiqələr.

Nə vaxtsa,

adamların qolları

metro eskalatorları olacaq.

Biz isə

metro sərnişinləri kimi,

qollarında enəcəyik

yerin altına.

Minəcəyik

o dünyanın qatarına

gedəcəyik,

“Nizami” dayanacağında

düşmək şərtilə

Ənvər dayının

xatirəsinə... ***(İş yerimizin bağbanı Ənvər***

dayını yolu keçərkən gözlərimin

önün də maşın vurdu)

Ağaclar sarvansız

dəvə karvanı tək,

pozub nizamını,

Ənvər dayı!

Kimsəsiz uşaq kimi,

su dilənir keçənlərdən

həyətdəki alma ağacı.

Mən şahidiyəm

əzrayılın qucağına

qaçdığın günün.

Düşdüyün

dayanacaqdan keçirəm

yoxluğuna,

salam verərək.

Ana ***(Uşaq vaxtı anam bizi ev süpürgəsi ilə döyərdi)***

Baxışların

ürək dağlayır, ana!

Ağlayır arxamca

uşaqlıq xatirələrim.

Və bir ev süpürgəsinin

izi qaşınır kürəyimdə.

Bilirəm,

nələr çəkdiyini...

Dünən ilk dəfəydi

qapımızı döyən qayğılara

qapı açdım,

Salam!

Nə sözünüz var,

mənə deyin.

Şuşa

Şuşanın il dönümü...

8 may 1993-cü il.

Gileyli görünür

qaçqın şəhərciyi.

Gözləri dolub

“Mən Qarabağlıyam”

deyən uşağın.

Və bir vaqonunda

məskunlaşmış qaçqın ailəsi

soruşur gələnlərdən;

-Qatar nə vaxt yola düşəcək, Şuşaya?

Sənincün

Yenə qonşunuzda söz danışıblar,

Məndən söz salıblar , bir az gülüblər.

Bir şeir yazmışam, dillərə düşüb,

Bir söz söyləmişəm, düzün biliblər.

Qonşuyuq, qapımız üz-üzə baxır,

Gərək biz sevinək belə imkana.

Bir daş atacağam pəncərənizə,

Taqqıltı eşitsən, gəl çıx eyvana.

Ulduzlar seyr etsin bizi bu gecə,

Hərdən əllərinə toxunsun əlim.

Baxıb baxçanıza həssəd aparım,

Əlimi uzadım, bir meyvə dərim.

Sonra sağollaşaq, səhərə yaxın,

Taqqıltı salmayaq, eşidən olar.

İndi daş atıram pəncərənizə,

Çalış eyvana çıx, gəl çıx, nə olar.

Günahsızlar

Sinəsindən

şəhid uşaqların

şəkilləri asılıb

Vətən torpağının.

Analar

çiçək səpir

qəbristan yollarına.

Ata, gözün aydın

Oğlun qayıtdı.

Səni gözləyirəm

Yenə dayanmışam yol qırağında,

Könlümdən bir səni görməyim keçir.

Hər gələn avtobus ümüdüm olur,

Amma nə faydası dönməyib keçir.

Sıxır ürəyimi sənsizlik indi,

Ürək də bu yolda heçliyə dalır.

Qolumda o vaxtkı nimdaş saatdır,

Yenə dünənki tək yeddiyə qalır.

Düşüb keçəcəksən bu yolu indi,

Gah sağa, gah sola boylanacaqsan.

Şütüyüb keçəcək maşınlar bir-bir,

Gözləyə-gözləyə odlanacaqsan.

İşimdən, gücümdən olmuşam, gülüm.

Hər yol döngəsində sevgim gizlənir.

Qara gözlərindi sənin, əzizim.

Eynək arxasında məndən gizlənir.

Belə durmayaydım mən boynu bükük,

Nə edib yolları bağlatdıraydım?

Mən gərək bir polis çavuşu olub,

Bütün maşınları saxlatdıraydım.

07.10.2010

Qaçqın uşağı

Ağlama, oğul,

bu ildə baxçaya

gedə bilməyəcəksən.

Şeir öyrətməyəcək sənə

qonşudakı müəllimə.

Bu ildə boynunu bükəcəksən,

qapı ağzındakı oturacaqda.

Yenə dondurma satan

bir oğlanın

“dondurma var” sözləri

donduracaq səni yerində.

Burnunu qoluna siləcəksən,

Qaçacaqsan velosiped sürən

uşaqların arxasınca.

Yenə boynunu bükəcəksən

baxça qapısında,

maşın- maşın gələn ailələri,

ayağını “don” vurmuş

tay-tuşlarını görəcəksən.

Qaçacaqsan qucağıma,

Ata, -onlar hardan gəlir?

-Onlar, vətəndən-vətənə

gəlir, oğlum.

18.11.2010

Tale

Sən dünyanın

ən köməksiz insanısan.

Döndüyün ata evində də,

gülər üzlərin ömrü

bir həftə sürəcək.

Dayanıb,

hönkür-hönkür ağladığın

ata məzarında,

əkdiyin güllərin

ləçəkləri isalanacaq

göz yaşlarından.

Sən köməksizsən,

iki körpə balanla.

Ovuclarında bir qız

və bir oğlan uşağının

soyuq əlləri titrəyir.

Dərdini kimə deyəsən?

İndi, özün

günahkarsan deyəcəklər

Dözməliydin deyəcəklər

Gecələr sərxoş gəlmiş

kişinin təhqirlərinə,

daha nəyə, nələrə...

indi, özün sızlayırsan

o günlər üçün.

01.12.2010

Get

Bir gün xatirələr qalacaq sənə,

Qəlbində dolanan meh olacağam.

Duman tək çökəcəm bu yer üzünə,

Qara saçlarında şeh olacağam.

Səs kimi qalacaq qulaqlarımda,

Sənli xatirələr ağ çiçək kimi.

Alıb qoparacaq dodaqlarımdan,

Küləklər adını kəpənək kimi.

Get, çırpma qapımı, çırpma, sən Allah,

Sən gedən günlərin seyrinə dalım.

Keçmiş günlərimdən xatirə kimi,

Qoy köhnə qapımla baş-başa qalım.

O köhnə qapıdan işıq süzülsün,

Bir də yolun düşsə boylan, ora bax.

Qapı arxasında dünən var, gülüm,

Məni o dünəndə tək-tənha burax.

Kirayə oatağım

Kirayə otağım isitməz səni,

Sənsiz heçə dönüb günüm, ayım da.

Uzanıb unutmaq istəyirəm mən,

Səni bu kirayə lal çarpayımda.

Məni bəyənmədin bir oğlan kimi,

Mən sevgi istədim özündən sənin.

Kirayə otağın divarlarında,

Öpmüşəm şəklində üzündən sənin.

Hara tələsirdin, ay ömrüm, günüm?

Bu sən gedən küçə, mən sevən küçə.

Sənə çal-çağırla “xoşbəxt ol” deyən,

Mənim göz yaşımı görməyən küçə.

İndi, gedişindən hamı danışır,

Bir qız gəlin köçdü, evdən deyirlər.

Sənə ürəyini vermiş oğlana,

Xəbərsiz olanlar “evlən” deyirlər.

İnsaf

Sənsiz

dəli küləklər kimi,

düşmüşəm şəhərə.

Sağa dönürəm

başdakı küçədə,

itmək istəyirəm

gözlərində.

Amma qorxuram

Adımı “yalançı” qoyasan.

Səhər təzə açılıb...

sükutu pozub

Lənkəranlı qadın.

“limon var, beşi bir manata”

Eh! Sən də qız anasısan,

Salamsız keçəcəm yanından.

Bir dəqiqə,

Bir söz soruşmaq istəyirdim,

Bəlkə, “insaf”ın ola,

“beşi bir manata”

Sevdiyim qızın

anasına göndərim.

13.06.2011

Könlüm

Sevə-sevə külə döndü,

Sənsiz tənha qalan könlüm.

Neçə kərə gözlərimlə,

Sənə dedim yalan könlüm.

Unutduğum ilk bahardı,

Bir qız sevdim, dedim yardı.

Elə şirin sözü vardı,

Etdi səni talan könlüm.

Nə üz çevir, nə də alış,

Bu qismətdi, sən də barış.

Gəzib belə qarış-qarış,

Yaşa könlüm, dolan könlüm.

Tənhalıq elegiyası

Ürəyim

keçmişimdə qalıb.

Xatırlayır səni

ayrılıq dolu misralar.

Bilirəm,

yenə bir sevgi

şeirimdən

cingildəyir qulaqların.

Düşür əlinə

qəzet köşkündəki

son səhifə.

Yenə bir

“Get” şeiri

Qovur səni

yaddaşımdan.

Əsgər

Yenə əlindəki

təqvimi qaralayır

Vətən oğlu.

Bir qız

yol gözləyir yaddaşında.

“Vətən” sözünə ağı deyir

əsgər meydançası.

Mən bilirəm

görüşdən gələn əsgərin ürəyindəki

zabit sualını...

Əmim Təzəxanın

xatirəsinə

İtrə-itirə gedirəm hələ,

Yaxını, uzağı, dostu, yoldaşı.

Dünya sinəsindən yollar çəkdirib,

Dünya başlayıbdı ölüm yarışı.

İndi bir başdaşı dikələcəkdir,

Dönüb xatirəyə, qalar yadımda.

Ölüm tarixini vəsf edən rəssam,

Bir insan çəkəcək öz soy adımda.

Bir oğul dayanıb məzar önündə,

Dünənki ölümün fikri başında.

Bir adam bu torpaq altında yatır,

Köçüb bu dünyadan, yarıyaşında.

Varlığın bu evin hər şeyi imiş,

Bunu gətirməzdik biz fikrimizə.

Günlərin üstünə gün gəlir ata,

Yoxluğun daha çox güc gəlir bizə.

Dünya tərsinəmi fırlanır indi,

Bir dərd hücum çəkib ürəyi əzir.

Dünya dəyişdirib baxar üzünü,

Yaxşı adamların əlindən bezir.

Qəlbimin ağrısı

Sənli xatirələr dərd verir mənə,

Sakitcə bu qəlbim ağlayar indi.

Həkimlər bu dəfə söz verdi mənə,

Ağrıyan qəlbimi yoxlayar indi.

Qoşarlar sinəmə yad cihazları,

Ağrıyan qəlbimin dərdi yozula.

Qorxuram dərdimi tapa həkimlər,

Qorxuram ekrana adın yazıla.

Bir dərman verərlər təsəlli kimi,

İçim yoxluğuna mən dözüm deyə.

Qorxuram gözümə baxa həkimlər,

Qorxuram dərdimi öz gözüm deyə.

Axı, bu dərd üçün həkim neyləsin?

Sənsiz bu gözlərim yaşlar axıdır.

Həkimlər günahkar deyildir, gülüm,

Bu dərd taleyimin öz günahıdır.

İndi

Səni ürəyimdən çoxdan silmişəm,

Sən yada düşməyən diləksən, indi.

Axşam-səhər saçlarımda titrəyən,

Sən bir toz geyimli küləksən indi.

Sənə söylədiyim söz də yalanmış,

Qəlbim sənlə bircə kərə talanmış.

Sən mənim əlimdə bir parçalanmış,

Məktubsan, sətirsən, vərəqsən, indi.

Bir vaxt yollarına necə baxmışam,

Sənincün gəncliyi oda yaxmışam.

Daha xoşbəxtliyi gəzib tapmışam,

Sən mənim nəyimə gərəksən, indi.

Bu səhər...

Mən bir avtobus gözləyirəm,

rəngi qırmızı

nömrəsi yetmiş doqquz,

yenə o qız düşəcək,

ağ paltarda...

Məni görər-görməz,

qanı qaralacaq.

Baxışları süpürəcək bu küçənin

axşamdan qalmış tozunu.

O, bir addım öndə gedəcək,

mənsə bir addım arxada,

başlıyacağam gələcəkdən ümidlə

danışmağa...

o isə həmişə olduğu kimi, deyəcək,

yox! yox! yox!

Şəhərli qıza şeir

Sən kimin qızısan,

mən kimin oğlu,

Atam bir kənçidi, kəndçi dostu var.

Səninsə atanın saya gəlməyən,

Bu şəhər boyunca neçə postu var.

Yanır yaşıl işıq o cüt nömrəyə,

Gəlir bu yollardan keçir, sovuşur.

Atamın gəldiyi o avtobusdan,

“Polis” əl qaldırıb sənəd soruşur.

Bu qədər özünü öymə əzizim,

Demirəm sən mənim bəxtim olarsan.

Endirər göylərdən Allahım səni,

Sabah onu bil ki, heç kim olarsan.

Sənə lay-lay çalır, o “Prado”nun,

Milyona alınmış qara salonu.

Səni ömür boyu sevən biri var,

Hərdən xatırlayıb yada sal onu.

Xocalıda

Neçə-neçə mərd oğullar,

Şəhid oldu Xocalıda.

Əlif kimi qəhrəmanlar,

Şəhid oldu Xocalıda.

Tofiq, Faiq sinə gərdi,

Kim unudar belə dərdi.

Körpə beşikdə inlədi,

Şəhid oldu Xocalıda.

Dizə yağdı bəyaz qarlar,

Ürəyimi yaman dağlar.

Gözü yaşlı çox analar,

Şəhid oldu Xocalıda.

Vasif, yurdun qəm içində.

Ağla, şair, belə gündə.

Millət necə dərd, zülümdə,

Şəhid oldu Xocalıda.

Balaca Həsənin xatirəsinə

Altı yaş, altı gün nə idi sənə,

Bir dəcəl balaydın evimiz üçün.

Sənin şıltaqlığın sənin varlığın,

Bir məlhəm olmuşdu kefimiz üçün.

Gedişin dağ çəkdi sinəmə, bala,

Yanıb öz içimdə göz yaşı tökdüm.

Sənin məzarına tünd qırmızı gül,

Ancaq öz qəlbimə qəm daşı tökdüm.

Bu necə dərd idi, bu necə tale,

Sənsiz sevinərək danışmaq olmur.

Allahın hökmüdür bilirəm oğlum,

Axı bu hökümlə barışmaq olmur.

Ötəcək illərin hər dəqiqəsi,

İllərin üstünə illər gələcək.

Sənin yoxluğunun acı küləyi,

İnan bizim evdə hər an əsəcək.

7 dekabr 2010

Bilirsən

Ayağım getsə də, ürəyim qalır,

Sənin əllərində əsir, bilirsən.

Yenə baxışların tanınmaz olub,

Bu nə ittihamdır, nə sirr, bilirsən.

Sənsiz olmur dedim, olacaq dedin,

Yerin başqasıyla dolacaq dedin.

Mənimlə həyatın solacaq dedin,

Həsrətin ömrümü kəsir, bilirsən.

Küsmək təsəllimi olubdur sənə?

Səbəbsən saçımda ağaran dənə.

Yüz yol yollarında dayansam, yenə

Əllərim əlinçün əsir, bilirsən.

Kəndim

Mən böyüdüm, sən qocaldın,

Doğmalaşdın mənə kəndim,

Yaş da gəldi, yaşım üstə,

Dağlar aşdım sənə kəndim.

Gəzdim yamac, yaylağında,

Çox dolandım oylağında.

Bir gözəlin yanağında,

Sevgi verdin mənə, kəndim.

Böyüdükcə uzaqlaşdım,

Çaylar kimi doldum-daşdım.

İllər keçdi uzaqlaşdım,

Qonaq oldum sənə, kəndim.

Vasifəm ey... Şair balan,

Sənsiz həsrət çəkən qalan.

Hər addımda qadam alan,

Baş əyirəm sənə, kəndim.

Şəhid Elgün Şükürovun

xatirəsinə...

Bir şəhid anası ağlayır burda,

Qurumur göz yaşı heç gecələr də.

Bir şəhid anası ağlayır burda,

Nalələr yurd salıb lal küçələrdə.

Sən qulluq eylədin vətənin üçün,

Durdun keşiyində sonuna kimi.

Döyüşdün o zülmət kor gecələrdə,

Torpağa tökülən qanına kimi.

Elə adını da Elgün qoydular,

Elin dar gününə çatasan deyə.

Məzarın üstünə gül düzülüb ki,

Gül-çiçək içində yatasan deyə.

Yaman əzab verib bu həsrət bizə,

O vaxtdan, o qəmgin üzlər də gülmür.

Sən sil göz yaşını, şəhid anası!

Şəhidlər sağdılar, şəhidlər ölmür.

Götürüb pencəyi gedəcəm

Götürüb pencəyi gedəcəm evdən,

Uzaqlar vətənim olacaq mənim.

Məni bu soyuqda isidən pencək,

Nə vaxtsa kəfənim olacaq mənim.

Götürüb pencəyi gedərəm, qorxma,

Bu uzun yolu da mən addım-addım.

Mən sənin qəlbində nakam bir eşqin,

Ağrı-acısını beləcə daddım.

Yağacaq üstümə yağış da, qar da,

Sənsiz mən hardasa sıxılacağam.

Bu cavan ömrümdə son ümüd kimi,

Qara pencəyimə sıxılacağam.

Getmişəm, mən yoxam, o otaq, o sən,

Yadıma düşürsən heç nəyim kimi.

Bilirəm gözlərin asılı qalıb,

O boş asılqandan pencəyim kimi.

Gedirsən dinlə məni

Ömür sənin yollarına,

Səpiləcək çiçək deyil.

Qara uzun saçlarına,

Örtüləcək ipək deyil.

Axdın, Araz çayı kimi,

Ömrün solğun yayı kimi.

Bir dilənçi payı kimi,

Sevgin mənə gərək deyil.

Qara gözlüm, uzun saçlım,

Qayıtmısan gözü yaşlı.

Elə bildin qara daşdı

Köksümdəki ürək deyil.

Əzizim

Bu gecə yadıma düşübsən yenə,

Bilmirəm nə edim sənsiz, əzizim.

Sənsiz tənhalaşıb cığırlar, izlər,

Sənsiz tənhalaşıb dəniz, əzizim.

Bu payız gör necə göynətdi məni,

Çal qəm nəğməsini...

qəlbim tar simi

Hər cığır xatirə dəftəri kimi-

Eh... səndən söz açır hər iz, əzizim.

İndi gözüm yolda bir qərib təki,

Ruhumu qürbətin havası çəkir...

Sənsə milyon illik məsafədəki,

Tək-tənha közərən ulduz, əzizim.

Vasifəm, dərd adlı sirdaşım belə.

Qəm süzür köksümdə qəm daşı belə...

Deyirəm, bəlkə də göz yaşı ilə,

Söndü sinəmdəki bu köz, əzizim.

Mən günahkar deyiləm

Özün dedin gedirəm,

Mən demədim ki, sənə...

Özün seçdin bu yolu

Mən dəymədim xətrinə.

İllər, aylar dolaşıb

Qayıtmısan yaman gec.

Min arzu, min diləyi

Özün eyləmisən heç.

Yaxşılar sırasında

Yerinə yalan yazdın.

Bu sevgi yollarınada

Bilmədim necə azdın.

Özünə sevgi evi,

Mənəsə qəbir qazdın.

Bəs bu nə ittihamdır,

Bu nə sualdır belə?

Özün çıxıb getmişdin,

Mən deməmişdim sənə...

Vəfasız söyləsəm mən

Qəlbinəmi toxunar?

Məni narahat edir

Sənsiz qalan yuxular.

Həsrət bir ümman olub

Orda qəlbim boğulur.

Daha göz yaşını da

Taxma kipriklərinə...

Özün dedin gedirəm,

Mən demədim ki, sənə.

Haçandı

Sevgilim, ayrıldıq yağışlı gündə,

Gözlərim gözünə baxmır haçandı.

O qara tellərə tər bənövşəni,

Bu soyuq əllərim taxmır haçandı.

İndi sən ayrısan, indi mən ayrı,

Qıyma şirin cana, gözəl, amandı.

İllərdir düşmüşəm mən səndən ayrı,

Qayıt, mənim gülüm, tez gəl amandı.

Gözlərim yol çəkir sənli günlərə...

Bir qəm havası var içimdə yalqız.

İndi sənsizlikdən solan güllərə

Qayıt, gəl, təzədən həyat ver, ay qız.

Səninlə getdi

Təkcə sən deyildin ömrümdən gedən,

Sevgim, səadətim sənin**lə** getdi.

Ey mənim ruhumu bəxtiyar edən,

Eşqim, məhəbbətim sənin**lə** getdi.

Boylanır içimdən köz dərin-dərin,

İndi bir xatirən, bir də gözlərin...

Gəl coşdur təzədən göy dənizləri,

Qüvvətim, qüdrətim sənin**lə** getdi...

Ayırdı bizi

Əzablı aylar dolu.

İllər ayırdı bizi.

Min hiylə yalan dolu,

Dillər ayırdı bizi.

Dərd-qəmi mənə qalan,

Özümü dərdə salan.

Qara saçları yolan,

Yellər ayırdı bizi.

Göydə şimşəklər çaxıb,

Məni yandırıb-yaxıb.

Qəfildən elə axıb,

Sellər ayırdı bizi.

Sənsiz yaşamağa

öyrəşdim...

Bu tale, bu ömür sıxardı məni,

Yoxluğun yandırıb – yaxardı məni.

Həsrətin gör hara apardı məni,

Qalmışam yoluna mən baxa-baxa,

Sənsiz yaşamağa öyrəşdim daha.

Bilirəm, dəyişib indi soyadın,

Mənsə ötənləri anıb ağladım.

Bu axşam adına çiçək bağladım

Gülüm, xəyalımda batdım günaha,

Sənsiz yaşamağa öyrəşdim daha.

Kim bilər nə çəkdim, nələr istədim,

Özümdən bixəbər səni gözlədim

Deyirdim, hicrana dözə bilmədim,

Ümid bağlamadım sənə, sabaha...

Sənsiz yaşamağa öyrəşdim daha.

Kitabları yandırmayın

Yandırmayın kitabları amandı,

Hər birisi bir dünyadan yadigar...

Nizaminin, Füzulinin, Vaqifin,

Nəsiminin haqq səsidir kitablar.

Hər vərəqdə min arzu var, dilək var,

Fırtına var, qasırğa var, külək var.

Hər sətirdə bir döyünən ürək var,

Kitabları yandırmayın amandı.

Ayrılıqdan sonra

Vaxt gələr yadına

düşərəm sənin,

ürəyin acıyla dolar,

gözün o getdiyim

yollarda qalar,

ötən günlərin

xatirələrinə dalar.

Qayıdar geriyə xatirələrim

Nəmli sətirlərim

yorar səni.

Gözlərim ətrafa boylanıb,

Bu qoca şəhərdən soraqlar səni.

...Eh, sən də gedirsən

hicrana doğru.

Hər gün bir-birindən

ağır doğulur.

Qorxuram dözməyim

yolların kədərinə...

yol gəlirəm sənə...

sənə doğru.

Hədiyyəm göz yaşım olacaq,

Hədiyyən göz yaşın olacaq...

Ayrılıqdan sonra

Ad günüm

Mən dünyaya gələndə

qarşıma ilk çıxan payız oldu

yarpaqlar əllərini uzatdı mənə...

Sonra boylanıb pəncərədən

saatlarla baxdı gözlərimin içinə.

Və mən nənəmin ağuşunda

sobanın yanında qızınırdım onda.

Atamın gözlərində isə

sevgi və sevinc doğulurdu həmin anda.

Mən birinci idim...

nənəm və babam gülürdü.

Qonşudakı qarınınsa

təkcə səsi qalıb qulağımda...

Nəsə vird eləyirdi dodağında,

Pəncərədənsə yağış süzülürdü...

Balbanovda ad günümü qeyd eləyəndə

Həmin yağış düşdü yadıma.

Görünür, mən atamdan, anamdan çox

payızın oğlu idim.

O qız da məni elə payıza bənzədib sevdi.

Gecələr

Xəyalın gözümün önünə gəlir,

Sızladır həsrətin məni gecələr.

Payız səmasının buludları tək,

Ələyir başıma qəmi gecələr.

...Gecələr qəlbimə qoşulub ağlar,

Bu qəmi göylərdən sən endirmisən.

Axı, gecələrin nə günahı var?

Ona qap-qara don sən geyindirmisən.

Bir qoca ağlayır

Dəniz kənarında qoca ağlayır,

Ağlaya-ağlaya kömək istəyir.

Fikitli, kədərli baxışlarıyla,

Dərdini hamıya demək istəyir.

Dualar eyləyir yoldan keçənə,

Bu dərd çox deyilmi bir ürək üçün?

Yalvarır-yaxarır gəlib-gedənə,

Axşam alacağı bir çörək üçün.

Gör necə günlərə qalıbdı qoca...

Əyibdir belini ehtiyac onun.

Hər gələn anlamaz o nələr çəkir,

Çəkdiyin anlayar yalnız ac onun.

Düşdün gözlərimdən

Mən düşdüm yollarda ayaq izinə,

Sənsizlik zülmət tək çökdü gözümə.

Gör nələr eylədim özüm-özümə...

Səni çiçək sandım solmayan kimi,

Düşdün gözlərimdən olmayan kimi.

Bu gün də sənindi, sabah da sənin,

Nə oldu bilmədim titrədi əlin.

Sən indi yad evdə tənha bir gəlin

Mənsə bir uşaqtək ağlayan kimi,

Düşdün gözlərimdən olmayan kimi.

Qalıb o günlərdən əbədi bir iz,

Nə and içə bildik, nə "hə" dedik biz.

Hər iki sinədə çırpınır dəniz...

Qəfil şahə qalxan bir ümman kimi

Düşdün gözlərimdən olmayan kimi.

Qayıtma

Daha o sevgiyə ehtiyacım yox,

Özümçün yaşaram daha qayıtma.

Məni çox incitdi ucuz xəyanət,

Ucuz oyuncaqsan baha, qayıtma.

İtirdin bəxtinə düşən qisməti,

Vədələr nə yaman aldatdı səni.

Kaş ki, yollarımız kəsişməyəydi,

Sınan görməyəydim bu qədər səni.

Nifrət var...

deməli sevgi var hələ,

Keçmə qürurunun üstündən asan,

Eh! Necə alçalıb getmişdinsə də,

Bilirdim eləcə qayıdacaqsan.

...Yanaşı daynıb nifrətlə sevgi,

Mənimlə səninki qalıb Allaha,

De, niyə getmişdin, niyə qayıtdın?

Gəl sevgi öldürüb bataq günaha,

Mənimlə səninki qalsın Allaha.

Neyləyim

Bu sevginin əzabı çox, qəmi çox,

Həsrətinə dözər oldum, neyləyim.

Gözüm yaşlı, saçlarımın dəni çox,

Mən canımı üzər oldum, neyləyim.

Yalanmıydı mənə baxan baxışlar?

Sevgi dolu yol uzunu naxışlar.

Rəbbim səni bir özgəyə bağışlar,

Bu sevgidən bezər oldum, neyləyim.

Gül qoxlayıb sevər oldu cavanlar,

Möhnət imiş səndən mənə qalanlar.

Aramızda sərhəd çəkdi yalanlar,

Əllərimi üzər oldum, neyləyim.

Bir baxışla səndən kömək umandım,

Sən gedirdin, mən dayanıb yubandım.

Sənin üçün bilirdim ki, gümandım,

Mənim üçün gözəl oldun, neyləyim.

Şəhidlər

Onlar...

tətiyi çəkilmiş güllə,

lülələrdən qopmuş mərmi,

səngərlərə süzülən qan

Onlar...

təpədən dırnağacan Azərbaycan!

Çiçəyi cırtlamamışdı

qərənfilin, yasəmənin...

sevgi qoxusu gəlmirdi gözlərindən,

əllərindən

Barıt qoxusu gəldi meyitlərindən.

Onlar...

buludlara qoşulub getdilər,

dağları, dənizləri aşıb getdilər.

Ancaq torpaqda sümüklərini əkib

qanla suvardılar.

Bilirdilər ki, qayıdacaqlar.

Onlar...

torpaq davası döymüşdülər,

Onlar...

Onlar..

Yenə əlləri, üzləri qan...

Onlar təpədən-dırnağacan

Azərbaycan.

Qısqanclıq

Sevgi şeirlərim xətrinə dəyir,

Sənə bağlanmışam son varım kimi.

Yenə bir şeirimə tənə edirsən,

Səni qısqandığım paltarın kimi.

Ömrümə - günümə qonaq gələn qız,

Sənintək gözələ indi yaram mən.

Səni qısqanmasam inan əzizim,

Axı, hiss etməzsən daha varam mən.

Hərdən əllərimə toxunur əlin,

Gəzir bu şəhərin dar küçəsində.

Adımı çağırsan baxıb, boylanıb,

Möcüzə duyuram o gül səsində.

Nə deyim bəxtimə yazılan eşqə,

Bu gecə adına şeir deyirəm.

Qara gözlərinə vurulduğumdan,

Elə əynimi də qara geyirəm.

20.02.2011

Sənsizlik

Yolumdan keçən,

ərköyün birinə

vermək istəyirəm,

sənsizliyi.

Amma, utanıram

dediyim sözlərə...

Bax, elə dediyim,

“Sənsiz olmur” kəlməsiylə

Bilirəm, nə boyda yalan danışmışam.

Mən əvvəlki deyiləm

Xatirələrin gözünə

bir ovuc kül tökdüm,

baxmasın deyə.

Ayaq izlərini isə,

sınmış bir söyüd ağacının

budaqlarıyla süpürdüm yollardan.

Get, daha ağlamayacam,

Nənəmdən əziz deyildin ki...

Mübariz

Çoxdankı sükutun

ritmini pozdu

o, öz hünəriylə.

Bir şəhid anasının

göz yaşını,

oğul məktubu sildi,

yanaqlarından.

“vətən sağ olsun”

dedi o,

və getdi,

şəhidlərin qulağına

qələbə sevincini deməyə.

Dənizdə ölən var,

Salavat çevirin

dəniz məzarlığına.

Sevgi döyüşü

Ürəyimdə dalğalanır,

sancdığın, həsrət bayrağı.

Özümü aldadıram,

atəşkəs sevdasıyla.

Özümü səndən

azad etdim.

Amma ürəyim,

hələ də tapdanır

sevginin işğalında.

Ögey ana

Uzaqlarda

qalmış kəndin,

çağırır kişisini qucağına

sinəsində sıldırımlı qayalardan

bezmiş dağlar.

Balalarını

köksünə basıb,

qalxır at belinə, atam.

Sanki, bir daha

dönməyəcəkmiş kimi.

Qaçıram arxasıyca,

Ata! Məni də apar...

07.04.2011

Baba

Baba,

illərin xatirəsi var

ağ saçlarında.

Atamın uşaqlığı

bir bəyaz telə sarılıb,

baxır uzaqlardan gözlərimə.

Bir ovuc quyu suyu

yuyur uşaqlıq xatirələrimi

qaçdığım yollarda.

Və indi mən

solmuş üzündə

nənəmin yoxluğunu duyuram.

24.01.2011

Gəl pəncərənizi apar

Baxdığın pəncərə açılmır daha,

Gərək aparaydın cehizin kimi.

Düşüb yollarımdan qala uzaqda,

İtəydi gözümdə o izin kimi.

Gördüm, bir maşındı yanımdan keçir,

Qəlbimdə bir eşqin xatirəsi var.

Dünən yaxınlardan duydum bu sözü,

Dedilər qucaqda bir körpəsi var.

Mən sənin nəyinə gərəyəm daha,

Kül olmuş ocağam, kor olmuş közəm.

Bir qucaq sevinci yığdım otağa,

Çalışdım bu gecə həsrətə dözəm.

Bu gecə çətin ki, yata biləsən,

Şübhələr, qorxular aldadar səni.

Yoxluğum bu gecə girib yuxuna,

Bir körpə uşaq tək oyadar səni.

Sən onda bilərsən kim qonaq gəlib,

Bağışla yoxluğun üzünə gülüb.

Bir söz soruşacam səndən əzizim,

Kim-kimin dünyada dərdindən ölüb?

Ürəyim ərköyün uşaqdı...

Bir gün, bir il kimi çətindir mənə,

Yumsam da gözümü sabah açılmır.

Taleyim özündə elə gizlənib,

Gördüm söyləyəni hələ tapılmır.

İndi, gedişinə qan ağlayıram,

Bu eşqin alovu tək səni yaxmır.

Ürəyim ərköyün uşaqdır, gülüm,

Nə qədər çağırsam sözümə baxmır.

Mən kiməm, ömründən ötəri bir kəs,

Səni tanıyaydım, səni biləydim.

“Yox” sözün dilə yox, ələ düşəydi,

Tapıb mən hardasa kaş gizlədəydim.

İndi, ikimiz də eyni şəhərdə,

Artıq yad adamıq, daha neyləyim?

Sənin ər evində öz ehtiyacın,

Mənimsə qarşımda öz gələcəyim.

Kitabxanaçı qıza

Kitablar əlimdə fürsətə dönüb,

O, oğrun gözünlə baxmısan mənə.

Hər kitab sifariş olub dilimdə,

Sənsə, bircə-bicə tapmısan mənə.

Niyə baxışların yada dönübdür,

Niyə bu sevgimi vermisən hədər.

Mən isə sevirəm səni əzizim,

Qalın kitabların səhifəsi qədər.

Hər səhər gəlişin müjdəyə dönür,

Tezdən oyanıram, tezdən dururam.

Sənin keçəcəyin yol qırağında,

Sevgimi çətir tək göyə qururam.

Hər kitab üstündə əl izin qalır,

Kitablar açılır, onlar oxunur.

Sənə toxunmağa yox cəsarətim,

Əllərim kitabda izə toxunur.

Qalxdım pilləkəni əlimdə kitab,

Bəlkə qismətimsən, bəlkə yazımsan.

Mənim gəlişimə incimə, gülüm,

Hər görüş vaxtını özün yazmısan.

A dünya

Qəfildən kəsdirib başım üstünü,

Vermədin sən mənə macal, a dünya.

De, hansı üz ilə durmusan belə,

Səni mənim kimi qocal, a dünya.

Çəkdiyim əzabın sayı bilinməz,

Dəryanın heç zaman dibi görünməz.

Duraraq qarşımda danışmaz-dinməz,

Demədin bir kərə ucal, a dünya.

Sözüm-söhbətimlə hücumdayam mən,

İndi, təhlükələr ucundayam mən.

Soruşma nə cürə lüzumdayam mən,

Yaşa özün üçün vur, çal, a dünya.

Vasif həyatında seçib düzünü,

Neyçün sınayırsan mənlə gücünü.

Bu qədər mənimçün öymə özünü,

Bir azca sadə ol alçal, a dünya.

Ata

Getdiyin otağa baxa bilmirəm,

Divarlar üstümə yıxılır, ata.

Sənlə danışıb, gülən ürəyim,

İndi, sənsizlikdən sıxılır, ata.

Zaman öz zəngini vaxtsızda çalır,

Verdiyi borcunu geriyə alır.

Könül sənli günün seyrinə dalır,

Ömür-gün ot tutub yaxılır, ata.

Neyləyim, dünyadan alım qisası,

Varmı bundan böyük dərdin acısı.

Etdiyin əməlin inan hamısı,

Yadıma düşərək anılır, ata.

Vasifəm, çəkmişəm min cürə zillət,

Səndən hey umardım nəsihət, hörmət.

Əzəldən insana verilən qiymət,

Vaxt gəlir torpağa qatılır, ata.

12.11.2008

Bu günün dünənə bənzəmir

Bu günün dünənə bənzəmir daha,

Büdrəyib ayağın yolundan çıxıb.

Səni danlamağın nə xeyri axı,

Dünən ki, görüşdə yadından çıxıb.

Mənim günahımdır hər cığır, hər iz,

Baxar gözümümü qınayım indi?

Bu mənim ömrümdə bir oyun deyil,

İkinci şansımı sınayım indi.

Bu günün dünənə bənzəmir daha,

Yeri ayaqları büdrəmiş kimi,

Dönüb ötənlərə baxma əzizim,

Baxma, o ürəyi göynəmiş kimi.

Anamın şair oğlu

Anamın şair oğlu,

yenə gəlibdi kəndə.

Bir əlində çantası,

bir əldə hədiyyəsi

bir şeir dəftərçəsi,

bükülüb cığaraya.

Anamın şair oğlu,

bir az arıq, bir az xoş.

Bir cibində dəsmalı,

bir cibiysə yenə boş.

İndi, şeir oxuyur,

Gəzir dağı, dərəni.

Salamlayır bu yoldan,

hər gələn, hər gedəni.

Köçmüş o babaların,

yerləri belə dolur,

sən məni belə tanı,

şairlər həssas olur.

Atamın tək əli

Bu ev qaranlığa qərq olur, ata,

Bu yollar getdikcə hara uzanır?

Səni soranlara cavab verirəm,

Atam uzaqdadı, çörək qazanır.

Bir vaxt, bu küçədə dəcəl uşaqdım,

Ata, illər keçib, yaşa dolmuşam.

Götürüb çiynimə bu ağır yükü,

Sən təyin etdiyin kişi olmuşam.

Əlli il, ömründən ötdü səssizcə,

İndi, dünənini yada salırsan.

“Tək əldən səs çıxmaz” deyib atalar,

Sənsə tək əlinlə külüng çalırsan.

Qayğılar yenə də sarsıdıb səni,

Otağı siqaret tüstüsü boğur.

Deyirəm, Allahın işinə bir bax,

Analar necə də atalar doğur.

Gedək kəndimizə

Gedək kəndimizə nə gözəl vaxtdı,

Gedək, bu cənuba uzanan yolla.

Anam samavarı qalasın gülüm,

Sənsə yavaş-yavaş talaşa tulla.

Sonra biz oturaq ağacın altda,

Nəsə axtarasan, nə itirmisən.

Sonra biz çağıraq ana, ay ana,

Bizimçün de görüm nə bişirmisən.

A gülüm, biz özgə deyilik axı,

Düşüb dildən-dilə məhəbbətimiz.

Vallah gözləməkdən bezib bəlkə də,

Bizim gözü yaşlı səadətimiz.

Gedək kəndimizə bəstdi bu inad,

Orda nə zülmətdi, nə də gecədi.

Gedək kəndimizə hal-əhval tutaq,

Bir bilək qohumlar, yadlar necədi.

Yazıçı Rafiq Tağının əziz xatirəsinə

Vətən ağladı gedişinə,

qar yağdı göylərindən.

Sonra, səni xatırladıq

kitab rəflərin də...

Sonra özün kimi təmiz,

və bəyaz qarların altın da

məzar qazdılar sənə.

Ağ qar, ağ kəfən, ağ adam...

Elə arzu edirəm ki,

qatillərin xəcaləti donsun üzlərində...

Bağışla

Səni doğma bildim ürək açanda,

Göz yaşım bir oldu yağan yağışla.

Səni tanımadım onda əzizim,

Mən səni sevmişəm, məni bağışla.

Uçub taleyimdən getmisən, daha,

Bir günlük görüşlə, bir kəlmə sözlə.

İnan, yaddaşımda hələ qalmısan,

Mənə həyat verən o bir cüt gözlə.

Qına taleyimi bildiyin qədər,

Gecələr yuxuma haram qatırsan.

Barışa bilmirəm bu qismətlə mən,

Sən yadla yatırsan, yadla durursan.

Mən yorğun gəlirəm boş otağıma,

Yoxluğun ömrümdə dərd ortağımmış.

Ürəyim elə bil özümün deyil,

Elə bil o sənin öz adamınmış.

04.07.2011

Ay insafsız

Yalan dolu vədlər verib,

Üzdün məni, ay insafsız.

Hər addımda yad baxışla,

Süzdün məni, ay insafsız.

Ömrü-günü puç eylədin,

Yad dillərdə söz dinlədin.

Bilirsənmi, nə eylədin,

Əzdin məni, ay insafsız.

Didərginəm ömrü viran,

Olmamışdım əhdə yalan.

Bir anda sən qəlbi talan,

Etdin məni, ay insafsız.

Vasif səni hər vaxt andı,

Söylə kimə nələr qaldı.

Bilsən necə dərdə saldı,

Eşqin məni, ay insafsız.

05.03.2008

Bilirəm

Mənsizliyin xəyalına qurşanıb,

Alışanı olacaqsan, bilirəm.

Söylədiyin acı-acı sözlərin,

Peşimanı olacaqsan, bilirəm.

Hər baxışda isindiyin qolların,

Tabı yoxdu səndən sonra onların.

Min həvəslə o getdiyin yolların,

Qayıdanı olacaqsan, bilirəm.

Aldanmısan yalan dolu dillərə,

Köçüb getdin özgə elə-yerlərə.

Mənli keçən gözəl-gözəl günlərə,

Yalvaranı olacaqsan, bilirəm.

Qəzəl

Gör necə dərd çəkirəm, mən o gözəl yarım üçün,

Öyünür bu ürəyim, bax belə bir varım üçün.

Məni məndən eləyən gözlərə baxdıqca gülüm,

Sanıram can deyəcək, bir belə ah-zarım üçün.

Deməyə söz nə qədər, dinləməyə imkanı yox,

Mən də hey gözləyirəm söz demirəm arım üçün.

Yaş ötür ey gözəlim, sən ki, belə etməz idin,

Neçə şahid gətirim sevgidə ilqarım üçün.

Vasifəm, səbr edirəm, dözməyə vardırsa tabım,

Yetərəm məqsədimə, ol gözəl dildarım üçün.

Sən

Sən

Yaddaşımdakı,

həmin saçı kəsik qızsan

dilim gəlmir səni qınamağa...

Səni unutdum,

Səni görən günü unuda bilmirəm.

Göz yaşlarım

getdiyin yollardı yanaqlarımda,

hər dəfə

təzələyirəm ayaq izlərini.

Heç bilmirəm,

Necə xoşbəxt olacaqsan.

Getmə

Getmə, ürəyimə çəkmə bu dağı,

Axı, bu sevgimə quyu qazılar.

Bəyaz gəlinlikdə ağlama, gülüm,

Birdən yanağına adım yazılar.

Kimdi ki, yanında dayanan sənin.

De, hardan özünə yaxın bilmisən.

O, qara bəxtindi qara geyim də,

Çevrilib qoluna niyə girmisən?

Gedirsən, durmuşam gözləri yaşlı,

Dözərəm birtəhər, tab olsun sənə.

Sərim ürəyimi ayağın altda,

Yad evdə qırdığın qab olsun sənə.

İki əlli tutmuşam qulaqlarımı,

“Vağzalı” çalınır göz yaşı axır.

Hələ də, qəlbinlə bacarmırsan ki,

Hələ də, gözlərin gözümə baxır.

Ayrılıq

Yolundan uzağa düşmüş sevgimin,

Ötən günlərini fikirləşirik.

Ayrılıq vaxtından neçə il keçib,

Sən mənə, mən sənə özgələşirik.

Boğaram içimdə bu dərdi özüm,

Uşaq deyiləm ki, göz yaşı tökəm.

Dünyaya gəlmişəm yaşamaq üçün,

Gəlmədim, sevginin dərdini çəkəm.

Sonradan anladım hər şeyi onda,

Soyuqluq duydum mən o gül səsində.

Yenə gedişindən gileylənirəm,

Satılan qəzetin son səhifəsində.

Səni bağışladım ötən günümə,

Ürəyim ayrılıq ünvanı oldu.

Sən yazıq bəxtimin ehtiyacının,

Qəlbimsə sevgimin qurbanı oldu.

Nə deyim

Səndən ayrılmaq da

qismət imiş,

səni sevmək kimi.

Səni sevmək

günah imiş, əlimi qaldırıb,

Allahdan üzr istəyirəm.

Dünya boyda həsrətsən içimdə,

Adamlar daş atır göz yaşlarıma.

Bilirdim gedəcəksən,

bu şeiri də öncədən yazmışdım

Lap elə babamın ölümqabağı biçdirdiyi

Kəfən kimi...

Sən gəldin

Yenə gözlərinə baxdım bu səhər,

Sabahım nur oldu, nura boyandı.

Nə yaxşı ömrümə sən gəldin canım,

Solmuş arzularım elə oyandı.

Susub düşünürəm səni indicə,

Küssən, sağalacaq söz yaramızda.

Uzun saçlarını dara əzizim,

Qoy yollar qısalsın öz aramızda.

Gələrsən, gedərsən hayana bilməm,

Gah mən darıxaram, gah sən uzaq da.

Birlikdə böyüdük o uzaq kəndə,

Birlikdə isindik yanar ocaq da.

Sənə dünya boyda ümüd vermişəm,

Elə boylanıram yoluna sarı.

Elə qısqanıram səni əzizim,

Bir qırmızı verim, qoluna sarı.

Bəlkə qayıdasan?

Elə öyrəşmişdim, elə özünə,

Bilmirdim, bu qədər dərd çəkəcəyəm.

Sənə ürəyimi verib nə vaxtsa,

Sonra da, mən səndən əl çəkəcəyəm.

Ayrıldıq, səsimdə çıxmadı mənim,

Ümidlə yaşadıq, dedik səbr edək.

Niyə bu adamlar incidir bizi?

Qoşulub səninlə hayana gedək?

Səni qınamıram, haqqın var buna,

Üç gün, üç gecəlik yollar uzaqdı.

Yenə bu şəhərə qar, yağış yağır,

Sənsiz darıxıram, qəlbim sazaqdı.

Unuda bilmirəm, çətindir mənə,

Getmisən, ürəyim yanında qalıb.

Bəlkə, qayıdasan nə qədər tezdi,

Məni ayrılığın əlindən alıb.

Səni yola vermirlər

Bir vaxt biz var idik bir sən, bir də mən,

Bir də kölkə salmış o salxım söyüd.

Məni uzaqlara yolladı tale,

Sənə övlad verdi, sən onu böyüt.

Sən indi anasan, saçı ağarmış,

Mən subay oğlanam, nə vecinədi.

Qaynana, baldızla hey öyünən qız,

Tanıdın onların iç üzü nədi?

Eşitdim xətrinə dəyiblər sənin,

Sənlə danışmayıb, heç gülməyiblər.

Sən gəlin köçəndə min cür söz verib,

Bəs sənin qədrini nöş bilməyiblər?

Gör necə biz indi uzaq düşmüşük,

Qovuşa bilsəydik sən bəsim idin.

Mən səni sevmişdim dünyalar qədər,

Deyirdim, dünyada hər kəsim idin.

Ayrılığın rəngi

Bilməliydim

səbəbini ayrılığın,

bilməliydim

səbəbini gedişinin.

Amma nəysə mən bilmədim,

Bəlkə, qədrini bilmədim,

mən heç xətrinə dəymədim.

Mən heç göy rəngi sevmədim,

Özün sevdin, özün seçdin bu qisməti,

Bu da taleyin qisməti,bu da ayrılığın rəngi...

Bəs niyə başını

çiynimə qoydun...

Şəklinə baxıram, gözlərim dolur,

Nə qədər uzqsan, o qədər yadsan.

Gedən də bir kəlmə soruşmadın heç,

Sən məni bəs necə unudacaqsan?

Bilmirəm, kiminçün doğulmuşam mən,

Başım da fikirlər, ürəyimdə sən.

Səninçün dualar edirəm hər gün,

Bilirəm, hər zaman köməyimdəsən.

Şəklinə baxıram gözlərim dolur,

Mən bir qız sevirdim o səndin, oydun.

Beləcə qəfildən gedəcəkdinsə,

Bəs niyə başını çiynimə qoydun?

Gözlərim bil sənsiz həsrət yüküdü,

Baxmağa utannam getdiyin yola.

Mən sənə qəlbimi verməmişdim ki,

Səni düşünən də gözlərim dola.

Sözlərim var

Bir dünyam var, qara gözlüm,

Dağlarım var, düzlərim var.

Gözlərim də səndən sonra,

Həsrət dolu izlərim var.

Nə verdi ki, tale bizə,

Yaş çatarmı görən yüzə.

Xatirəm də qalan üzə,

Yaddaşımda sözlərim var.

Getdin, bir də dönərsənmi,

Qədrimizi bilərsənmi,

Xoşbəxt ola bilərsənmi,

Yolların da gözlərim var.

Həsrət yeyir bu içimi,

Biz qınayaq, bilməm kimi.

Ayrılığa səbəb kimi,

Bax, özümün əllərim var.

Daha

Daha qar yağıb

biz tərəflərə...

əynimi qalın geyinmişəm

adın üşüməsin ürəyimdə.

Daha dəniz

kənarına getmirəm,

sənինçün darıxmağa

xatirə axtarmıram daha.

Daha, adını qoymağa

yer gəzirəm,

Söylə, adını harda gizlədim?

Ürəyim üşüməsin.

Rəqqasə

Soyunub, ərəb mahnısına

elə oynayırsan ki,

qadın ismətin tər tökür,

kişi baxışlarından.

Övladının halal

süd əmdiyi döşlərinə,

zülmət çöküb qaranlıq salonda.

Al, pencəyimi verim

əynini geyin,

qadın ismətinin xətrinə.

İkimiz

Nə qəribədir

Elə deyilmi?

ikimiz də tələbə

ikimiz də,

doğma şəhərimizdən ayrı

ikimiz də,

bir-birimizi sevirik.

ikimiz də,

bir-birimiz üçün darıxırıq...

ikimiz də,

kirayə yaşayırıq.

Bağışla, qapı döyülür

Deyəsən, ev pulumun vaxtı çatıb

Yaxşı, şeirimizin davamını sonra yazaram...

Bu aləmə səs salasan

Sən gecəmə nə verdin ki,

Gündüzümdən nə alasan.

Hər şey mənim günahımdır,

Doğrusunu sadalasan.

Bu sevginin özü bizik,

Nə yalanıq, nə də düzük.

Bu həyat da ikimizik,

Neyçün səni tək qalasan.

Indi biz necə danışaq,

Nə dərd çəkək, nə alışaq.

Gəlsənə gülüm barışaq,

Bu aləmə səs salasan.

Anamı aldatmaq olmur

Məndən uzaqdasan, sən gör nə vaxtı,

Daha de kim duyar, eşidər səni?

Arxanca o qədər ağlamışam ki,

Göz yaşım nə vaxtsa, üşüdər səni.

Səndən bir ömürlük xatirə qalıb,

Otağım doludu, heç yatmaq olmur.

Hər dəfə gəl evlən, deyən anamı,

Hər dəfə əzizim aldatmaq olmur.

Səni mən bu qədər niyə sevmişəm?

Hər gün sabahımı sənsizlik açır.

Səni sevdiyim tək inan əzizim,

Özümdən o qədər zəhləmim qaçır.

Gözünü yoluma dikmə, daha sən,

Bu nə sevgi idi mən anlamıram.

Atdığım addımın sabahı üçün,

Özümü ömürlük bağışlamıram.